**MÜSTƏQİL AUDİTORUN HESABATI (RƏY)**

**"MFX-TRADİNG İNVESTİSİYA ŞİRKƏTİ" ASC -nin rəhbərliyinə VÖEN 1405235131**

Mən, **"MFX-TRADİNG İNVESTİSİYA ŞİRKƏTİ" ASC -nin** 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və zərər, məcmu gəlirlər , kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları **"MFX-TRADİNG İNVESTİSİYA ŞİRKƏTİ" ASC -nin** 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (*və ya düzgün və ədalətli təsəvvür yaradır*).

Audit təqdim olunmuş sənədlər əsasında aparılmışdır. Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatım "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq **"MFX-TRADİNG İNVESTİSİYA ŞİRKƏTİ" ASC** - dən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik **"MFX-TRADİNG İNVESTİSİYA ŞİRKƏTİ" ASC** -ni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik **"MFX-TRADİNG İNVESTİSİYA ŞİRKƏTİ" ASC -nin** fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər **"MFX-TRADİNG İNVESTİSİYA ŞİRKƏTİ" ASC -nin** maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını

tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**Sərbəst Auditor** **Novruz İsmayıl oğlu Pənahov**

Bakı ş. Gəncə pr. 57/52

**13.01.2022** Mob.050-216-94-31

## BALANS

| AKTİVLƏR | məbləğ, manatla |
|---|---|
| 1. Vəsaitlər | **311378,95** |
| 1.1 Pul vəsaitləri | **311378,95** |
| 1.2 Maliyyə qoyuluşları | |
| 2. Debitor borclar | |
| 2.1.Dövlət büdcəsinə | |
| 2.2. Sair debitor borclar | |
| 3.1 Əsas vəsaitlər | |
| 3.1.1. Binalar , tikililər və qurğular | |
| 3.1.2. Maşınlar və avadanlıqlar | |
| 3.1.3. Nəqliyyat vasitələri | |
| 3.1.4. Digər əsas vəsaitlər | |
| 3.2. Qeyri-maddi aktivlərin dəyəri | **171419,94** |
| 3.2.1. İstifadə müddəti məlum olan | **171419,94** |
| 3.2.2. İstifadə müddəti məlum olmayan | |
| 4. Əsas vəsaitlərə yığılmış amortizasiya | |
| 4.1. Binalar , tikililər və qurğulara yığılmış amortizasiya | |
| 4.2. Maşınlar və avadanlıqlara yığılmış amortizasiya | |
| 4.3. Nəqliyyat vasitələrinə yığılmış amortizasiya | |
| 5. Ehtiyyatlar | |
| 5.1. Hazır məhsul | |
| 5.2. Mallar | |
| 5.3 Sair ehtiyyatlar | |
| 6.1.Gələcək dövrün xərcləri | |
| 6.2.Digər aktivlər | **20428,07** |
| CƏMİ AKTİVLƏR | **503226,96** |
| PASSİVLƏR VƏ KAPİTAL | |
| 7. Kreditor borclar | **22** |
| 7.1. Bank kreditləri | |
| 7.2. Sair kreditor borclar | 22 |
| 7.3. Alınmış avanslar | |
| 7.4. Gələcək dövrlərin gəlirləri | |
| 8. Digər öhdəliklər | 4400,23 |

| | |
|---|---|
| CƏMİ PASSİVLƏR | |
| 9. Kapital Hesabları | 498804,73 |
| 9.1. Nizamnamə kapitalı | 498804,73 |
| 9.2. Cari ilə xalis gəlir (zərər) | |
| 9.3. Bölüşdürülməmiş mənfəət | |
| CƏMİ PASSİVLƏR VƏ KAPİTAL | 503226,96 |

**Mənfəət və Zərər Hesabatı**

| **Gəlir və Xərclər** | **məbləğ, manatla** |
|---|---|
| 1. Gəlir | 21552,63 |
| **2.Ümumi gəlir** | 21552,63 |
| 3.Faiz xərcləri-xarici | |
| **4.Ümumi gəlir** | 21552,63 |
| **5.Ümumi gəlir və İnzibati xərclər** | 239323,31 |
| 5.1 Əmək haqqı | 104328,05 |
| 5.2 Sosial müdafiə/məşğulluq fondu xərcləri | 18782,17 |
| 5.3 Yanacaq xərcləri | |
| 5.4 Qaz xərcləri | |
| 5.5 Malın dəyəri | |
| 5.6 Elektrik enerjisi və isitmə xərcləri | |
| 5.7 Su və kanalizasiya xərcləri | |
| 5.8 Rabitə xərcləri | 1189,9 |
| 5.9 İcarə xərcləri | 2020 |
| 5.10 Mühafizə xərci | |
| 5.11 Amortizasiya və köhnəlmə | 14996,13 |
| 5.12 Faiz xərcləri | |
| 5.13 Təmir xərcləri | |
| 5.14 Bank xərcləri | 3689,66 |
| 5.15 Əmlak vergisi | |
| 5.16 Ezamiyyə xərcləri | |
| 5.17 Reklam xərcləri | 10408,1 |
| 5.18 Digər xərclər | 83909,3 |
| 5.19 Nəqliyyat xərcləri | |
| 5.20 Sığorta xərcləri | |
| 5.21 Torpaq vergisi | |

| | |
|---|---|
| 5.22 Xammal və materiallar | |
| 5.23 Təmir xərcləri | |
| **6. Mənfəət və Zərər** | -217770,68 |
| **7. Mənfəət vergisi** | |
| **8.Güzəştlər** | |
| **9. Faiz üzrə mənbədən vergi** | |
| **10.Ödənilməli mənfəət vergisi** | |

**Direktor:**

**Mühasib:**

Qeyd 1: Giriş

Mən, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilən **14 sentyabr 2021-ci il tarixli SA/050 qeyydiyyat nömrə ilə 5 il müddətinə** auditor fəaliyyəti göstərmək üçün icazəyə əsasən fəaliyyət göstərən Sərbəst Auditor Pənahov Novruz, **"MFX-TRADİNG İnvestisiya Şirkəti"** Açıq Səhmdar Cəmiyyəti ilə (bundan sonra Cəmiyyət adlandırılacaq) ilə bağlanmış **«10» mart 2022-ci il tarixli № 1-li müqaviləyə əsasən 01.01.2021-ci il tarixdən 31.12.2021-ci il tarixədək** olan dövrün maliyyə hesabatlarının (Balans Hesabatı, Mənfəət və Zərər Hesabatı) audutini apardım.

Auditə **«10» mart 2022-ci il** tarixdə başlandı **və «13» mart 2021-ci il** tarixdə başa çatdı.

Audit ilə əhatə olunan dövr ərzində maliyyə-təsərrüfat fəaliyyətinə aşağıdakı şəxslər cavabdehdirlər:

Direktor: **Abdullayev Zahir Dünyamalı oğlu (tam audit dövru)**

Mühasib: **Zarnəliyeva Olqa Tofikovna (tam audit dövru)**

Qeyd 2: Əvvəlki auditin nəticəsi

Qeyd 3: Sifarişçi haqqında ümumi məlumat

Cəmiyyət 1405235131 qeydiyyat nömrəsi ilə 19 avqust 2020-ci ildə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır. Təşkilatı hüquqi forması Açıq Səhmdar Cəmiyyətdir. Maliyyə ili 01 yanvar-31 dekabrdır. Cəmiyyətin 19 avqust 2020-ci il tarixli, 14052351311 qeydiyyat nömrəli VÖEN –i vardır. Son dövlət reyestrindən çıxarış 19 avqust 2020-ci il tarixli , № 2001020044463700 olmuşdur.

Cəmiyyətin hüquqi ünvanı **AZ1010, Bakı şəhəri Nəsimi rayonu, Süleyman Rəhimov ev . 179A**

Cəmiyyətin nizamnamə kapitalı **500000 (beş yüz min)** manat həcmindədir.

Cəmiyyətin səhmdarları **Nəbiyev Anar Telman oğlu – 200000 (iki yüz min) manat , 1000 (bir min) səhm, 40 (qırx) % ; Novruzov Cəmşid Şoqu oğlu– 170000 (bir yüz yetmiş min) manat , 850 (səkkiz yüz əlli) səhm, 34 (otuz dörd) % ; 130000 (bir yüz otuz min) manat , 650 (altı yüz**

**əlli) səhm, 26 (iyirmi alt) %** Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi direktor tərəfindən həyata keçirilir.

Cəmiyyətin Mənfəət və muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi mükəlləfiyyətləri olmuşdur. Hesabatlar aidiyyatı orqanlara vaxtında təqdim edilir.

Cəmiyyətin əsas fəaliyyət növü ixtisaslaşdırılmamamış topdansatış fəaliyyəti üzrədir.

Cəmiyyətin qanuni təmsilçisi 19 avqust 2020-ci il tarixdən **Abdullayev Zahir Dünyamalı** oğludur.

Cəmiyyətə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müddətsiz olaraq, **İŞ-06 qeydiyyat mömrəli,19 oktyabr 2020-ci il tarixli İnvestisiya** şirkəti fəaliyyətinə lisenziyası verilmişdir.

Cəmiyyətin Qiymətli kağızlar dövlət reyestri üzrə nominal dəyəri **200 (iki yüz)** manat olmaqla, **20 oktyabr 2020-ci il tarixə 2500 (iki min beş yüz)** ədəd qiymətli kağızları vardır.

**Qeyd 4: Hesabat əsası**

Cəmiyyətdə mühasibat uçotu Azərbaycan Respublikası "Mühasibat uçotu haqqında" Qanununa, Vergi qanunvericiliyinə, Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən hazırlanmış "Müəssisələrin mühasibat uçotunun hesablar planı və onun tətbiqinə dair" təlimatına əsasən aparılır. Maliyyə hesabatları həmin mühasibat qeydləri əsasında hazırlanmış və lazımi şəkildə düzəldilmişdir ki, onlar bütün mühüm aspektlər baxımından Beynəlxalq Mühasibat Standartları Komitəsinin qəbul etdiyi Beynəlxalq Mühasibat Standartlarına uyğun olsun.

**Qeyd 4.1: Hesabat əsası (davamı)**

Auditin məqsədi 31.12.2021-ci il tarixə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılması, hesabatların düzgün tərtib olunmasının yoxlanılması, gəlir və xərclərin düzgün müəyyən edilməsininin təsdiq olunmasıdır.

İşin yerinə yetirilməsi zamanı audit qrupu "Audit fəaliyyətinin professional normaları", "Auditin Beynəlxalq Standartları" və həmçinin hamı tərəfindən qəbul olunmuş audit metodlarını rəhbər tutmuşdur.

Sifarişçi təqdim etdiyi hesabatlardakı ilkin məlumatlara görə vahid məsuliyyət daşıyır.

Maliyyə hesabatları Azərbaycan Respublikasının milli valyutası olan Manatla təqdim edilir.

**Qeyd 5: Mühüm mühasibat prinsipləri**

Aşağıdakı mühüm mühasibat prinsipləri əlavə edilən maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilmişdir:

**Mühasibat əsası**

Cəmiyyətin maliyyə hesabatları ilkin dəyər prinsipi və tətbiq edilən BMS əsasında hazırlanmışdır.

**Hiperinflyasiya şəraitində maliyyə hesabatları**

**Əlaqəli tərəflər**

Əlavə edilən maliyyə hesabatları məqsədilə tərəflər bu halda əlaqəli hesab edilir ki, bir tərəf maliyyə və əməliyyat qərarlarının qəbul edilməsi zamanı o biri tərəfə nəzarət etmək və ya o biri tərəfə əhəmiyyətli təsir göstərmək qabiliyyətinə malik olsun.

**Nəğd vəsaitlər və nəğd vəsaitlərin ekvivalentləri**

Nəğd vəsaitlər və nəğd vəsaitlərin ekvivalentlərinə kassada olan nəğd pullar, banklarda olan hesablaşma və valyuta hesablarındakı qalıqlar aiddir.

**Debitorlar, kreditorlar, şübhəli və ümidsiz borclar üzrə ehtiyatlar**

Debitorlar və kreditorlar ödənilməmiş məbləğlərdə yarandığı dövrlərdə əks edilmişdir. Ümidsiz və şübhəli borclar üzrə ehtiyat rəhbərlik tərəfindən debitorların və avansların geri alınmasının qiymətləndirilməsinə əsaslanır.

Ehtiyatların təxminedilməsi fərziyyələrin istifadəsini tələb edir. Ehtiyat həcminin müəyyən edilməsi zamanı nəzərə alınan əsas amillər debitor borclarının artması, tərkibi və keyfiyyəti, vaxtı keçmiş debitorların həcmi, mövcud iqtisadı vəziyyətə uyğunluğudur.

Ödənilə bilməyən debitorlar və avanslar balansdan silinir və ümidsiz və şübhəli borclar üzrə ehtiyatlar yaradılmadığı üçün birbaşa zərərə aid edilir.

Vaxtı keçmiş kreditor borcları tələb olunmadığı halda gəlirə aid edilir.

**İnvestisiyalar**

İnvestisiyalar ilkin maya dəyərində əks edilən kapital investisiyalraından ibarətdir. Alınmış faizlər ayrıca olaraq faiz gəlirinə aid edilir. Bazar dəyərindəki azalma daimi hesab edilmədikdə, maliyyə hesabatlarında əks etdirilmir.

**Əsas vəsaitlər və qeyri-maddi aktivlər**

Əsas vəsaitlər və qeyri-maddi aktivlər toplanmış köhnəlməni çıxmaqla qalıq dəyərdə göstərilir. Əsas vəsaitlərin təmir və saxlama xərcləri, o cümlədən binaların və icarəyə götürülmüş binanın təmirinə çəkilən xərclər bu halda aktivləşdirilir ki, bu təmir və saxlama müvafiq aktivlərin iqtisadı həyatının uzanması və ya əhəmiyyətli şəkildə yaxşılaşması ilə nəticələnir və aktivin güman edilən iqtisadi həyatı və ya icarənin müddəti ərzində, bunlardan hansı daha az olarsa, bərabər aşınma üsulu əsasında köhnəlmə hesablanır.

Sair təmir və saxlama xərcləri çəkildiyi zaman xərcə silinir.

**Gəlir və xərclərin qeydə alınması**

Azərbaycan Respublikası Vergi Məcəlləsinə uyğun gəlirlər və xərclər kassa hesablama metodu əsasında müəyyən edilir.

**Qeyd 6: Pul vəsaitləri və sair qısamüddətli maliyyə aktivləri**

31.12.2021-ci il tarixə Cəmiyyətin pul vəsaitlərin qalığı **311378,95** manat olmuşdur.

**Qeyd 7: Debitor borclar**

31.12.2021-ci il tarixə cəmiyyətin Debitor borcların qalığı 20428,07 manat olmuşdur.

| | |
|---|---|
| **2. Debitor borclar** | **20428,07** |
| 2.1.Dövlət büdcəsinə | 0 |
| 2.2. Sair debitor borclar | 20428,07 |

**Qeyd 8: Əsas vəsaitlər, Azqiymətli və tezköhnələnlər və onların köhnəlməsi**

31.12.2021-ci il tarixə cəmiyyətin əsas vəsaitləri aşağıdakı kimi olmuşdur.

| | |
|---|---|
| **3.1 Əsas vəsaitlər** | 0 |
| 3.1.1. Binalar , tikililər və qurğular | |
| 3.1.2. Maşınlar və avadanlıqlar | 0 |
| 3.1.3. Nəqliyyat vasitələri | 0 |
| 3.1.4. Digər əsas vəsaitlər | 0 |

**Qeyd 9: Qeyri-maddi aktivlər**

31.12.2021-ci il tarixə cəmiyyətin Qeyri-maddi aktivləri aşağıdakı kimi olmuşdur.

| | |
|---|---|
| **3.2. Qeyri-maddi aktivlərin dəyəri** | **171419,94** |
| 3.2.1. İstifadə müddəti məlum olan | 171419,94 |
| 3.2.2. İstifadə müddəti məlum olmayan | 0 |

**Qeyd 10: Ehtiyyatlar**

31.12.2021-ci il tarixə cəmiyyətin Ehtiyyatlar aşağıdakı kimidir.

| | |
|---|---|
| **5. Ehtiyyatlar** | **0** |
| 5.1. Hazır məhsul | |
| 5.2. Mallar | 0 |
| 5.3 Sair ehtiyyatlar | 0 |

**Qeyd 11: Digər aktivlər**

31.12.2021-ci il tarixə cəmiyyətin digər aktivləri 0 manat olmuşdur.

**Qeyd 12: Aktivlərin cəmi**

31.12.2021-ci il tarixə cəmiyyətin aktivlərin **cəmi 503226,96** manat olmuşdur.

**Qeyd 13: Kreditor borclar**

31.12.2021-ci il tarixə cəmiyyətin kredit borcları 22,00 manat olmuşdur.

| | |
|---|---|
| 7. Kreditor borclar | 22,00 |
| 7.1. Bank kreditləri | |
| 7.2. Sair kreditor borclar | 22,00 |
| 7.3. Alınmış avanslar | |

**Qeyd 14: Digər öhdəliklər**

31.12.2021-ci il tarixə cəmiyyətin Digər öhdəlikləri 4400,23 olmuşdur.

| | |
|---|---|
| **8. Digər öhdəliklər** | 4400,23 |

**Qeyd 16: Nizamnamə kapitalı**

31.12.2021-ci il tarixə cəmiyyətin Nizamnamə kapitalı 498804,73 manat təşkil etmişdir ki, bu da aşağıdakı kimidir:

| | |
|---|---|
| 9.1. Nizamnamə kapitalı | 498804,73 |

**Qeyd 17: CƏMİ PASSİVLƏR**

31.12.2021-ci il tarixə cəmiyyətin cəmi passivlərin qalığı **503226,96** manat olmuşdur.

**Qeyd 18: Cəmiyyətin gəlirləri**

Cəmiyyətin 2021-ci il üzrə gəlirləri aşağıdakılardan ibarətdir:

| Gəlir və xərclər | məbləğ, manatla |
|---|---|
| 1. İşlərin görülməsindən gəlir | 21552,63 |
| **2.Ümumi gəlir** | 21552,63 |
| 3.Faiz xərcləri-xarici | |
| **4.Ümumi gəlir** | 21552,63 |

**Qeyd 19: Cəmiyyətin xərcləri**

Cəmiyyətin 2021-ci il üzrə xərcləri aşağıdakı kimi olmuşdur:

| | |
|---|---|
| **5. Ümumi gəlir və inzibati xərclər** | 239323,31 |
| 5.1 Əmək haqqı | 104328,05 |
| 5.2 Sosial müdafiə/məşğulluq fondu xərcləri | 18782,17 |
| 5.3 Yanacaq xərcləri | |
| 5.4 Qaz xərcləri | |
| 5.5 Malın dəyəri | |
| 5.6 Elektrik enerjisi və isitmə xərcləri | |
| 5.7 Su və kanalizasiya xərcləri | |
| 5.8 Rabitə xərcləri | 1189,9 |
| 5.9 İcarə xərcləri | 2020 |
| 5.10 Mühafizə xərci | |
| 5.11 Amortizasiya və köhnəlmə | 14996,13 |
| 5.12 Faiz xərcləri | |
| 5.13 Təmir xərcləri | |
| 5.14 Bank xərcləri | 3689,66 |
| 5.15 Əmlak vergisi | |
| 5.16 Ezamiyyə xərcləri | |
| 5.17 Reklam xərcləri | 10408,1 |

| | |
|---|---|
| 5.18 Digər xərclər | 83909,3 |
| 5.19 Nəqliyyat xərcləri | |
| 5.20 Sığorta xərcləri | |
| 5.21 Torpaq vergisi | |
| 5.22 Xammal və materiallar | |
| 5.23 Təmir xərcləri | |

**Qeyd 20: Cəmiyyətin mənfəəti**

Cəmiyyətin 2021-ci il üzrə mənfəəti aşağıdakı kimi olmuşdur:

| | |
|---|---|
| **6. Mənfəət və Zərər** | -217770,68 |
| **7. Mənfəət vergisi** | |
| **8.Güzəştlər** | |
| **9. Faiz üzrə mənbədən vergi** | |
| **10.Ödənilməli mənfəət vergisi** | |

**Qeyd 21: Nəticə və təkliflər**

Cəmiyyət tərəfindən hesablaşma kredit əməliyyatları aparılarkən qanunverciliyin tələblərinə tam riayyət edilməsi təmin edilsin.

Cəmiyyətin idarəetmə orqanlarının yığıncaqlarının qanunla müəyyən edilmiş müddətlərdə və qaydada keçirilməsi təmin edilsin.

Cəmiyyətdə divident hesablanması gələcək dövrlərdə nəzərə alınsın.

Maliyyə hesabatı 2 (iki) nüsxədən ibarət tərtib olunmuşdur.

Auditor: Pənahov Novruz

Sifarişçi təqdim etdiyi hesabatlardakı ilkin məlumatlara görə vahid məsuliyyət daşıyır.

Tanış oldu:

"MFX-TRADİNG İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin

Direktor: Abdullayev Zahir Dünyamalı oğlu

Baş mühasib: Zarnəliyeva Olqa Tofikovna

№ 1 **10 mart 2022-ci il**

"MFX-TRADİNG İnvestisiya Şirkəti"
Açıq Səhmdar Cəmiyyətinin
direktoru cənab Zahir Abdullayevə

AUDİT APARILMASININ ŞƏRTLƏRİ

Hörmətli Zahir müəllim !

Sizin, "MFX-TRADİNG İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti ilə 01.01.2021-ci il tarixdən 31.12.2021-ci il tarixədək olan dövrün maliyyə hesabatlarının (Balans Hesabatı, Mənfəət və Zərər Hesabatı) auditinin aparılması haqqında təklifinizi qəbul edərək bu məktub-öhdəliyi təsdiq edirik. Audit standartlarına və digər hüquqi-normativ aktlara əsasən 01.01.2021-ci ildən 31.12.2021-ci ilədək olan dövrün auditi həyata keçiriləcəkdir.

Bizim tərəfimizdən audit Azərbaycan Respublikasının qanunvericilik aktlarına əsasən aparılacaqdır.

Auditin məqsədi 31.12.2021-ci il tarixə "MFX-TRADİNG İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin mühasibat (maliyyə) hesabatlarının dürüstlüyü haqqında auditorun fikirini ifadə edən rəy verməkdən ibarətdir.

Audit zamanı, həmçinin təsərrüfat subyektlərinin filial, nümayəndəlik və törəmə müəssisələrinin fəaliyyətinin auditi həyata keçiriləcəkdir. Öz nəticələrimizi əsaslandırmaq üçün Sizin təşkilatın işçilərinin köməyinə ümid edərək daxili nəzarətin vəziyyətinin, uçot məlumatlarının yetərliliyinin və düzgünlüyünün yoxlanılmasında bir sıra prosedurlardan və testlərdən istifadə edəcəyik.

Auditin testlərinin seçilməsindən və digər özünəməxsus xususiyyətlərin, auditlə əhatə olunacaq sənədlərin həcmindən asılı olaraq, qeyri-müəyyənlik və səhvlərin aşkar edilməməsi riski mövcuddur. Biz hər şey edəcəyik ki, həmin riski minumuma endirmək mümkün olsun, lakin nəticənin tam dəqiqliyinə (auditdə qəbul edilmiş ümumi qaydaya əsasən) zamanət verə bilmərik. Siz mühasibat uçotu və hesabatlarında müəyyən edilmiş qaydadan kənarlaşmaların və mühasibat hesabatlarının qəsdən təhrif edilməsi faktlarının aşkar edilməsi haqqında bizim yazılı hesabatımızla məlumatlandırılacaqsınız.

Bundan başqa, Sizin tapşırığınıza əsasən biz sizə istədiyiniz xidmətləri göstərə bilərik.

Biz auditin aparılmasına dair müqavilənin şərtlərinə və «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən göstərdiyimiz xidmətlərə görə məsuliyyət daşıyacağıq. Biz Sizin təşkilatın kommersiya sirrinə riayət edilməsi üzrə öhdəliyi öz üzərimizə götürürük.

Uçot siyasətinin seçilməsinə və tətbiq edilməsinə, daxili nəzarət və mühasibat yazlışlarının uyğunluğunun təmin olunmasına, ilkin uçot məlumatlarının düzgün əks etdirilməsi də daxil edilməklə mühasibat hesabatlarının tərtib edilməsinin düzgünlüyünə "MFX-TRADİNG İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin məsuliyyətini Sizin nəzərinizə çatdırırıq.

Biz Sizdən "MFX-TRADİNG İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyindən xahiş edirik ki, audit üçün təqdim edilən məlumatların tam və dürüst olmasını rəsmi təsdiq edəsiniz.

Ümidvarıq ki, auditin tam aparılması üçün zəruri olan mühasibat sənədləri və digər məlumatlar bizim sərəncamımıza təqdim olunacaqdır.

Ümid edirik ki, Sizin mühasibat hesabatlarınızın dürüstlüyü haqqında bizim fikirimizi dəyişmək məqsədilə hər hansı bir formada bizim əməkdaşlara heç bir təzyiq göstərilməyəcəkdir. Qəbul

etdiyimiz audit normalarına əsasən həmin şərtin pozulması auditin aparılmasına dair müqavilənin vaxtından əvvəl dayandırılması üçün əsasdır.

Göstərilən xidmətlərin dəyəri "MFX-TRADİNG İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti ilə bağlanmış müqavilədə öz əksini tapmışdır.

Ayrı-ayrı işlərin dəyəri məsuliyyət dərəcəsinə müvafiq olaraq dəyişə bilər.

Xahiş edirik ki, Sizə təqdim olunan mühasibat hesabatlarının dürüstlüyünün auditinə razılıq haqqında məktub-öhdəliyin surətini imza edib, onun məzmununa dair təklif və iradlarınızı bizə göndərəsiniz.

Sərbəst auditor N.Pənahov

Mühasibat hesabatlarının auditor yoxlamasının şərtləri ilə razıyam.

"MFX-TRADİNG İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin

direktoru Z.Abdullayev